**Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi**
**Lənkəran Dövlət Universiteti**

"Təsdiq edirəm"
Tədris məsələləri üzrə prorektor v.i.e:
______ dos. Zaur Məmmədov
"30" 01 2026-cı il

**Fənn sillabusu**

**İxtisaslaşmanın şifri və adı:** 7001001 - Azərbaycan dili və ədəbiyyatın tədrisi
**Fakültə:** Filologiya və ibtidai təhsil
**Kafedra:** Azərbaycan dili və ədəbiyyat
**I. Fənn haqqında məlumat:**
**Fənnin adı:** Qədim və orta əsr Azərbaycan ədəbiyyatının tədrisi. **Fənn proqramı:** LDU Elmi-metodik şurasının 18.XI.2015-ci il tarixli iclasının qərarı ilə (protokol №) təsdiq edilmişdir.
**Kodu:** MİF-B07
**Tədris ili:** I - 2025/2026
**Semestr:** II (yaz)
**Tədris yükü:** Cəmi: 180 saat, Auditoriya saatı- 45 (30 saat müh, 15 saat sem.)
**Tədrisalma forması:** Əyani
**Tədris dili:** Azərbaycan dili
**AKTS üzrə kredit:** 6 kredit
**II. Müəllim haqqında məlumat:**
**Soyadı, adı, ata adı, elmi dərəcəsi və elmi adı:** Ağazadə Yədulla Bəbir oğlu, f.e.d, prof.
**Kafedranın ünvanı:** Lənkəran şəhəri, Əli Məmmədov küçəsi - 40 , 2 saylı tədris korpusu.
**Məsləhət günləri və saatı:** IV gün saat $11^{50}$-$12^{20}$
**E-mail ünvanı:** *y.ağazade@mail.ru*

**III. Tövsiyə olunan dərslik, dərs vəsaiti və metodik vəsaitlər:**

**Əsas ədəbiyyat:**

1. Ə.Səfərli, Y.X.Yusifli.Qədim və orta əsrlər Azərbaycan ədəbiyyatı.Bakı, 1998.
2. Azərbaycan ədəbiyyatı tarixi Elm, II-III cildlər.Bakı, 2007
3. Yusifov X.Nizaminin lirikası.Bakı, 1966
4. H.Araslı.Şairin həyatı.Bakı, 1966
5. Səfərli Ə.Məsihi.Bakı, 1983
6. Y.Ağazadə.Azərbaycan ədəbiyyatı tarixi (Qədim və orta əsrlər)Dərs vəsaiti. Bakı ,2018

**Əlavə ədəbiyyat:**

7. Qarayev Y.Tarix:yaxından və uzaqdan.Bakı, 1996
8. M.Quluzadə, Füzulinin lirikası, Bakı, 1973
9. H.Araslı, Böyük Azərbaycan şairi Füzuli, Bakı, 1958
10. Bertels, Nizami, Bakı, 1943
11. Kitabi-Dədə Qorqud.Bakı, 2001
12. İnternet resursları

**IV. Prerekvizit fənlər:** Fənnin tədrisi üçün öncədən"Azərbaycan şifahi xalq yaradıcılığı"fənninin tədrisinə ehtiyac vardır.

**V. Korekvizit fənlər:** Fənnin tədrisi ilə eyni zamanda başqa fənnin tədrisinə ehtiyac yoxdur.

**VI. Fənnin təsviri və məqsədi:** Qədim və orta əsrlər Azərbaycan ədəbiyyatının nəzəri əsasları fənninin tədrisində, öyrənilməsində, bütünlükdə problemə münasibətdə bitərəfliyə və qeyri-elmi konsepsiyalara son qoyulmalıdır. Bu fənnin tədrisində təkcə Qərbi Avropa və digər mənbələrin deyil, həm də Şərq və Azərbaycan ədəbi fikrinin rolu, əhəmiyyəti nəzərə alınmalıdır. Ümumiyyətlə, dünya ədəbi-nəzəri fikir tarixi bütöv, vahid bir anlayış kimi götürülməli, onun özlərinin söz və sənət haqqındakı lahiyanə mülahizələri, elmi-nəzəri müddəaları ilə zənginləşdirən X.Təbrizi, N.Gəncəvi, E.Quzzat, Ş.Sührəvərdi, M.Füzuli, A.Ərdəbili, Ə.Təbrizi, N.Tusi və b. klassiklərimizin bu sahədəki böyük xidmətləri ayrıca qeyd olunmalıdır. Bu həm elmi obyektivlik, həm də dünya ədəbiyyat nəzəriyyəsi tarixində qədim dövr və orta əsrlər Azərbaycan ədəbi-estetik fikrinin yerini, mövqeyini

nüəyyənləşdirmək nöqteyi-nəzərindən vacib, zəruridir.Fənnin tədrisi prosesində ədəbiyyat nəzəriyyəsinin antik, intibah, maarifçilik və onlardan sonra gələn mərhələləri arasında qırılmaz daxili əlaqə, üzvi vəhdət gözlənilməlidir. Bütünlüklə Qədim dövr və orta əsrlər Azərbaycan ədəbiyyatının nəzəri əsasları fənninin tədrisi yuxarıda qeyd edilən elmi-nəzəri metod, prinsip və metodoloji tələbləri gözləməli, izah və təhlil prosesi də məhz bu istiqamətdə aparılmalıdır.

**VII.Davamiyyətə verilən tələblər:** Fənn üzrə semestr ərzində buraxılmış auditoriya saatlarının ümumi sayı LDU-nun Elmi Şurasının 16 may 2024-cü il tarixli qərarına uyğun olaraq davamiyyət meyarları nəzərə alınmaqla müəyyən olunmuş həddən yuxarı olduğu halda tələbə həmin fəndən imtahana buraxılmır, onun həmin fənn üzrə akademik borcu qalır.

**VIII.Qiymətləndirmə:** Fənn üzrə tələbələrin biliyi 100 ballıq sistemlə qiymətləndirilir. Yəni tələbənin fənn üzrə toplaya biləcəyi balın maksimum miqdarı 100-ə bərabərdir. Bu balın yarısı (50 balı) tələbənin semestr müddətində fəaliyyətinin nəticəsinə (cari qiymətləndirmə), digər yarısı isə (digər 50 balı) imtahanın nəticəsinə (aralıq qiymətləndirmə) görə verilir.

Fənn üzrə cari qiymətləndirmənin nəticəsinə görə verilən maksimum 50 bala aşağıdakılar daxildir:

- 20 bal - seminar dərslərində fəaliyyətinə görə;
- 30 bal - kollokviumların nəticələrinə görə.

Qiymətləndirmə zamanı LDU-nun Elmi Şurasının 16 may 2024-cü il tarixli qərarına uyğun olaraq qiymətləndirmə meyarları nəzər alınır.

İmtahanda qazanılan balların maksimum miqdarı 50-dir. İmtahan yazılı şəkildə aparılır və imtahan biletinə bir qayda olaraq fənn üzrə tədris olunan mövzulara aid 5 sual daxil edilir. Hər sual maksimum 10 bal olmaqla qiymətləndirilir (aşağıda qeyd olunan qiymət meyarına əsasən) ki, bu da toplamda fənn üzrə aralıq qiymətləndirmənin nəticəsinə görə verilən maksimum 50 balı təşkil edir.

Qiymət meyarları aşağıdakılardır:

- 10 bal - tələbə keçilmiş materialı dərindən başa düşür, cavabı dəqiq və hərtərəflidir;
- 9 bal - tələbə keçilmiş materialı tam başa düşür, cavabı dəqiqdir və mövzunun məzmununu tam aça bilir;
- 8 bal - tələbə cavabında ümumi xarakterli bəzi qüsurlara yol verir;
- 7 bal - tələbə keçilmiş materialı yaxşı başa düşür, lakin nəzəri cəhətdən bəzi məsələləri əsaslandıra bilmir;
- 6 bal - tələbənin cavabı əsasən düzgündür;
- 5 bal - tələbənin cavabında çatışmazlıqlar var, mövzunu tam əhatə edə bilmir;
- 4 bal - tələbənin cavabı qismən doğrudur, lakin mövzunu izah edərkən bəzi səhvlərə yol verir;
- 3 bal - tələbənin mövzudan xəbəri var, lakin fikrini əsaslandıra bilmir;
- 1-2 bal - tələbənin mövzudan qismən xəbəri var;
- 0 bal - cavab yoxdur.

Tələbənin fənn üzrə aralıq qiymətləndirmə balının (imtahanda topladığı balın) miqdarı 17-dən az olmamalıdır. Əks təqdirdə tələbənin fənn üzrə aralıq qiymətləndirmə balı cari qiymətləndirmə balına (semestr ərzində tədris fəaliyyəti nəticəsində topladığı bala) əlavə olunmur.

Fənn üzrə cari və aralıq qiymətləndirmənin ümumi nəticəsinə görə tələbənin biliyi yekun olaraq aşağıdakı kimi qiymətləndirilir:

| **Bal aralığı (göstərilən ballar daxil olmaqla)** | **Hərflə işarəsi** | **Sözlə yazılışı** |
|---|---|---|
| 91-100 bal | A | əla |
| 81-90 bal | B | çox yaxşı |
| 71-80 bal | C | yaxşı |
| 61-70 bal | D | kafi |
| 51-60 bal | E | qənaətbəxş |
| 51-baldan aşağı | F | qeyri-kafi |

**IX.Davranış qaydalarının pozulması:** Tələbə Universitetin Daxili intizam qaydalarını pozduqda onun barəsində mövcud qanunvericilik çərçivəsində müvafiq tədbir görüləcəkdir.

**X. Təqvim mövzu planı:** *Cəmi: 45 saat.Mühazirə 30 saat , seminar 15saat.*

| № | Keçirilən mühazirə məşğələlərinin məzmunu | M | Tarix |
|---|---|---|---|
| 1. | **Qədim və orta əsrlər Azərbaycan ədəbiyyatı kursunun inkişaf mərhələləri, məqsəd və vəzifələri, ilkin qaynaqlar.**<br>Plan: 1. "Ədəbiyyat" sözü və onun mahiyyəti. 2.Fənnin məqsəd və vəzifələri 3.Ən qədim dövrlərdə Azərbaycan ədəbiyyatı.4.Midiya əfsanələri. Mif və mifologiya.<br>Mənbə: [1,2,3,5] | 2 | |
| 2. | **Zərdüşt "Avesta", "Kitabi-Dədə Qorqud".**<br>Plan: 1. "Avesta" 2.Orxon-Yenisey abidələri 3.Kitabi-Dədə Qorqud"da mifoloji boylar 4. "Kitabi-Dədə Qorqud"un poetik xüsusiyyətləri<br>Mənbə: [1,2,3,5] | 2 | |
| 3. | **"Qutadqu bilik". "Divani-lüğət-it-türk".**<br>Plan: 1."Qutadqu bilik" poeması 2.M.Kaşğarlı "Divani-lüğət-it türk"<br>Mənbə: [1,2,4] | 2 | |
| 4. | **Ərəbdilli Azərbaycan ədəbiyyatı. (VII-XI əsrlər) XI-XII yüzilliklərdə Azərbaycan ədəbiyyatının inkişaf istiqamətləri və əsas nümayəndələri. X.Şirvani.**<br>Plan:1.Ərəbdilli Azərbaycan ədəbiyyatı M.Şəhavət, İ.Yəsar və başqaları 2.XI-XII əsrlər Azərbaycan ədəbiyyatı.Saray ədəbiyyatı 3.Əbülüla Gəncəvi və Müciraddin Beyləqaninin yaradıcılığı 4.Qivami Mütərrizi və Məhsəti Gəncəvi yaradıcılığı<br>Mənbə: [1,2,7,8] | 2 | |
| 5. | **Qətran Təbrizi. Xaqani Şirvani.**<br>Plan: 1.Q.Təbrizinin həyat və yaradıcılığı 2.Xaqani Şirvaninin həyatı və yaradıcılığı 3.Xaqaninin "Töhfətül-İraqeyn" məsnəvisi 4.X.Şirvani ictimai-fəlsəfi qəsidənin qüdrətli nümayəndəsi kimi.<br>Mənbə: [1,2,7,8] | | |
| 6. | **Nizami Gəncəvi dövrü, həyatı və lirik şeir yaradıcılığı, "Sirlər xəzinəsi"poeması.**<br>Plan:1.N.Gəncəvinin dövrü, ədəbi mühiti, həyat və yaradıcılığı 2.N.Gəncəvinin lirikası 3.N.Gəncəvinin "Sirlər xəzinəsi" poemasının mövzusu və ideyası<br>Mənbə: [1,2,7,8] | 2 | |
| 7. | **N.Gəncəvinin epik şeir yaradıcılığının mütərəqqi xüsusiyyətləri.**<br>Plan: 1. "Xosrov və Şirin" mənzum romanı, 2. "Leyli və Məcnun", "Yeddi gözəl" və "İskəndərnamə" poemaları<br>Mənbə: [1,2,7,8] | 2 | |
| 8. | **XIII-XIV əsrlər Azərbaycan ədəbiyyatı. Marağalı Övhədinin həyat və yaradıcılığı.**<br>Plan:1. Divan ədəbiyyatı, onun mövzu dairəsi 2.XIII-XIV əsrlər Azərbaycan ədəbiyyatının əsas xüsusiyyətləri 3.Marağalı Övhədinin "Cami-Cəm" poeması<br>Mənbə: [1,2,3,5,7,8] | 2 | |
| 9. | **Ə.Təbrizi, Q.Bürhanəddin, A. Ərdəbili.**<br>Plan: 1.Əssar Təbrizinin "Mehr və Müştəri" poeması 2.Qazi Bürhanəddinin həyat və yaradıcılığı 3.A.Ərdəbilinin "Fərhadnamə" poeması<br>Mənbə: [1,2,3,5,7,8] | 2 | |
| 10. | **İ.Nəsiminin həyat və yaradıcılığı.**<br>Plan: 1.İmadəddin Nəsiminin dövrü, həyatı və yaradıcılığı 2.İ.Nəsiminin məhəbbət lirikası 3.İ.Nəsiminin sufi-hürüf şeir yaradıcılığı.<br>Mənbə: [1, 5,6,7,8] | 2 | |
| 11. | **XV-XVI əsrlər Azərbaycan ədəbiyyatı. Ş.İ.Xətai.** | 2 | |

| | | | |
|---|---|---|---|
| | Plan: 1.XV-XVI əsrlər Azərbaycanın əsas xüsusiyyətləri 2.Ş.İ.Xətayinin həyat və yaradıcılığı 3.Ş.İ.Xətayinin epik şeir yaradıcılığı<br>Mənbə: [1, 5,6,7,8] | | |
| 12. | **Məhəmməd Füzulinin həyat və yaradıcılığı, lirikası.**<br>Plan: 1.M.Füzulinin dövrü, həyat və yardıcılığı 2.Füzulinin lirik şeir yaradıcılığı<br>Mənbə: [1,2, 4,5,6,7,8] | 2 | |
| 13. | **Məhəmməd Füzulinin epik şeir yaradıcılığı, nəsri.**<br>Plan: 1.M.Füzulinin "Leyli və Məcnun" poemasının mövzusu və ideya, bədii xüsusiyyətləri 2.Şairin alleqorik əsərləri 3.Füzulinin nəsri | 2 | |
| 14. | **XVII-XVIII əsrlərdə ədəbiyyat. Saib və Qövsi Təbrizi.**<br>Plan: 1. XVII-XVIII əsrlər ədəbiyyatının xarakterik xüsusiyyətləri 2.Fədainin "Bəxtiyarnamə" poeması 3.Məsihinin "Vərqa və Gülşa" poeması 4.Saib və Qövsi Təbrizi yaradıcılığı<br>Mənbə: [1,2, 4,5,6,7] | 2 | |
| 15. | M.V.Vidadi, M.P.Vaqifin həyat və yaradıcılığı<br>Plan: 1.M.V.Vidadinin həyat və yaradıcılığı 2.M.V.Vidadinin qoşma və gəraylıları 3.M.V.Vidadinin "Müsibətnamə" məsnəvisi 4.M.V.Vidadi şeirində qürbət və Vətən hissinin ifadəsi. 5.M.P.Vaqifin həyat və yaradıcılığı 6.M.P.Vaqifin lirikası 7.M.P.Vaqifin "Görmədim" müxəmməsi və "Bax" rədifli qəzəlinin təhlili 8.M.P.Vaqif şeirində dünyəvi eşqin tərənnümü<br>Mənbə: [1,2,3,4,5,6,7] | 2 | |

| № | Keçirilən seminar məşğələlərinin məzmunu | Saat | Tarix |
|---|---|---|---|
| 1. | Qədim və orta əsrlər Azərbaycan ədəbiyyatı kursunun inkişaf mərhələləri, məqsəd və vəzifələri, ilkin qaynaqlar. Zərdüşt "Avesta", "Kitabi-Dədə Qorqud". | 2 | |
| 2. | "Qutadqu bilik". "Divani-lüğət-it-türk". Ərəbdilli Azərbaycan ədəbiyyatı. (VII-XI əsrlər) XI-XII yüzilliklərdə Azərbaycan ədəbiyyatının inkişaf istiqamətləri və əsas nümayəndələri. X.Şirvani | 2 | |
| 3. | Qətran Təbrizi. Xaqani Şirvani. Nizami Gəncəvi dövrü, həyatı və lirik şeir yaradıcılığı, "Sirlər xəzinəsi"poeması | 2 | |
| 4. | N.Gəncəvinin epik şeir yaradıcılığının mütərəqqi xüsusiyyətləri. XIII-XIV əsrlər Azərbaycan ədəbiyyatı. Marağalı Övhədinin həyat və yaradıcılığı. | 2 | |
| 5. | Ə.Təbrizi, Q.Bürhanəddin, A. Ərdəbili. İ.Nəsiminin həyat və yaradıcılığı. | 2 | |
| 6. | XV-XVI əsrlər Azərbaycan ədəbiyyatı. Ş.İ.Xətai. Məhəmməd Füzulinin həyat və yaradıcılığı, lirikası. | 2 | |
| 7. | Məhəmməd Füzulinin epik şeir yaradıcılığı, nəsri. XVII-XVIII əsrlərdə ədəbiyyat. Saib və Qövsi Təbrizi. | 2 | |
| 8. | M.V.Vidadi, M.P.Vaqifin həyat və yaradıcılığı. | 1 | |

**XI. Fənn üzrə tələblər:**
Tələbələr aşağıdakıları bilməlidirlər:-Ədəbiyyat tarixinin mərhələlərini-Divan ədəbiyyatının xüsusiyyətlərini-XI-XII əsrlər Azərbaycan ədəbiyyatının xüsusiyyətlərini-Təriqət ədəbiyyatının xüsusiyyətlərini-Nizami və Nizami ədəbi məktəbini-Hürufilik və Məsihi yaradıcılığını-XVI əsr Azərbaycan ədəbiyyatı .Füzuli -XVII-XVIII əsrlər Azərbaycan ədəbiyyatını
**XII. Fənnin tədrisi üçün nəzərdə tutulan tədris və öyrənmə metodları:**

-mühazirə, seminarlar və praktiki tapşırıqlar;
-video və audio mühazirələr;
-müstəqil iş / araşdırma
-debat

**XIII. Fənn üzrə təlimin nəticələri:**

- Qədim və orta əsrlər Azərbaycan ədəbiyyatının nəzəri əsasları fənninin tədrisində, öyrənilməsi
- X.Təbrızı, N.Gəncəvi, E.Quzzat, Ş.Sührəvərdi, M.Füzuli, A.Ərdəbili, Ə.Təbrizi, N.Tusi və b. klassiklərimizin irsi mənimsənilir
- Bu həm elmi obyektivlik, həm də dünya ədəbiyyat nəzəriyyəsi tarixində qədim dövr və orta əsrlər Azərbaycan ədəbi-estetik fikrinin yerini, mövqeyini müəyyənləşdirmək nöqteyi-nəzərini, ədəbiyyat nəzəriyyəsinin antik, intibah, maarifçilik və onlardan sonra gələn mərhələləri arasında qırılmaz daxili əlaqələri, bütünlüklə Qədim dövr və orta əsrlər Azərbaycan ədəbiyyatının nəzəri əsasları fənninin tədrisi yuxarıda qeyd edilən elmi-nəzəri metod, prinsip və metodoloji tələbləri gözləməli, izah və təhlil prosesini və istiqamətini öyrənir.

**XIV.Tələbələrin fənn haqqında fikrinin öyrənilməsi:**

**XV: Kollekvium sualları:**

**I Kollekvium sualları**

1. Qədim və orta əsrlər Azərbaycan ədəbiyyatı kursunun nahiyyəti mövzusu, məqsəd və vəzifələri
2. İlkin qaynaqlar. Midiya əfsanələri.
3. "Kitabi-Dədə Qorqud" eposu
4. "Orxan-Yenisey kitabələrinin mövzusu, ideyası
5. Ərəb dilli şairlərin yaradıcılığı (İ.Yəsar, M.Şəhavət)
6. Y.Balasaqulu "Qutadu bilik" siyasi-didaktik poeması
7. XI əsrlər Azərbaycan ədəbiyyatı. Qətran Təbrizinin yaradıcılığı
8. Xaqanı Şirvaninin həyatı və qəsidə yaradıcılığı
9. Məhsəti xanım Gəncəvinin həyat və yaradıcılığı
10. Xaqaninin "Töhfətül-İraqeyin" məsnəvisi

**II Kollekvium sualları**

1. Nizami Gəncəvinin həyatı, lirik şeir yaradıcılığı
2. Nizaminin "Sirlər Xəzinəsi" poeması
3. Nizaminin "Xosrov və Şirin" poemasının mövzusu, ideya bədii xüsusiyyətləri
4. N.Gəncəvinin "İsgəndərnamə" poeması
5. XIII-XIV əsrlər Azərbaycan ədəbiyyatının əsas xüsusiyyətləri, Həsənoğlu
6. Arif Ərdəbilinin "Fərhadnamə" poeması
7. Qazi Bürhanəddinin həyat və yaradıcılığı
8. İmadəddin Nəsiminin dövrü, həyatı və yaradıcılığı
9. XV-XVI əsrlər Azərbaycan ədəbiyyatı. Ş.İ.Xətai
10. M.Füzulinin "Leyli və Məcnun" poemasının mövzusu, ideya-bədii xüsusiyyətləri

**XVI.Fənn üzrə imtahan sualları:**

1. Qədim və orta əsrlər Azərbaycan ədəbiyyatı kursunun mövzusu, məqsəd və vəzifələri
2. Ən qədim dövrlərdə Azərbaycan ədəbiyyatı. Midiya əfsanələri, Davdək
3. Avesta
4. Orxon-Yenisey abidələri
5. Y.Balasaqunlunun"Qutadqu bilik" poeması
6. M.Kaşğarlı "Divani-lüğət-it türk" əsəri
7. "Kitabi-Dədə Qorqud"un tədqiqi, mövzusu və ideya-bədii xüsusiyyətləri
8. Ərəbdilli erkən orta əsrlər Azərbaycan ədəbiyyatı. M.Şəhavat, İ.Yəsar və başqaları
9. XI-XII əsrlər Azərbaycan ədəbiyyatı. Ə.Gəncəvi, F.Şirvani və b.
10. Məhsəti Gəncəvinin yaradıcılığı
11. Q.Təbrizinin həyat və yaradıcılığı
12. Xaqani Şirvaninin həyatı və yaradıcılığı
13. Xaqaninin "Töhfətül-İraqeyn" məsnəvisi
14. N.Gəncəvinin həyat və yaradıcılığı, lirikası

15. N.Gəncəvinin "Xosrov və Şirin" eşq dastanı kimi
16. N.Gəncəvinin "Sirlər xəzinəsi" poemasının mövzusu və ideyası
17. N.Gəncəvinin "Yeddi gözəl" poemasında "Yeddi gözəl" nağılları
18. N.Gəncəvinin "İsgəndərnamə" poeması
19. Nizami Gəncəvi yaradıcılığının mütərəqqi xüsusiyyətləri
20. Divan ədəbiyyatının xarakterik xüsusiyyətləri. Təsəvvüf
21. XIII-XIV əsrlər Azərbaycan ədəbiyyatının əsas xüsusiyyətləri, Həsənoğlu
22. "Dastani-Əhməd Hərami" poemasının struktur, ideya-mövzu və sənətkarlıq xüsusiyyətləri.
23. Marağalı Övhədinin "Cami-Cəm" poeması
24. Arif Ərdəbilinin "Fərhadnamə" poeması
25. Əssar Təbrizinin "Mehr və Müştəri" poeması
26. Qazi Bürhanəddinin həyat və yaradıcılığı, tuyuq yaradıcılığı
27. İmadəddin Nəsiminin dövrü, həyatı və yaradıcılığı
28. İ.Nəsiminin sufi hürufi şeir yaradıcılığı
29. XV-XVI əsrlər Azərbaycan ədəbiyyatının xarakterik xüsusiyyətləri
30. Kişvərinin həyat və yaradıcılığı
31. Ş.İ.Xətayinin həyat və yaradıcılığı
32. Ş.İ.Xətayinin lirikası
33. Ş.İ.Xətayinin "Dəhnamə" poemasının mövzusu və ideyası
34. M.Füzulinin həyat və yaradıcılığı
35. M.Füzulinin Azərbaycan ədəbi-bədii dilinin banisi kimi
36. M.Füzulinin nəsri
37. M.Füzulinin "Leyli və Məcnun" poemasında əsas surətlərin təhlili
38. M.Füzuli lirikasının sənətkarlıq xüsusiyyətləri
39. M.Füzulinin alleqorik poemasları
40. XVII-XVIII əsrlər ədəbiyyatının xarakterik xüsusiyyətləri

"Azərbaycan ədəbiyyat tarixi-1" fənninin sillabusu 7001001 - Azərbaycan dili və ədəbiyyatın tədrisi ixtisaslaşması (proqramı) üzrə tədris planı və fənn proqramı əsasında tərtib edilmişdir. "Azərbaycan dili və ədəbiyyat" kafedrasının 30 yanvar 2026-cı il tarixli iclasında təsdiq olunmuşdur (Protokol № 05).

**Fənn müəllimi:** prof.Y.B.Ağazadə

**Kafedra müdiri:** dos.Q.Rufullayev